Proyekt Rəqəmsal Biliklər Liseyinindir

# BioMedia RBL

SON VERSİYA

Redaktor:Fürqan Süleymanlı 8A

Nüsxə 2 Seriya 2 | Rəqəmsal Biliklər Liseyi | 23 Noyabr 2025-ci il | HighSeven Community | Pulsuz



## Rəqəmsal Biliklər Liseyi

Bakı Ali Neft Məktəbi Nəzdində Lisey

*Biz bu aylarda nələr etdik nə öyrəndik hamısı burada:*

### 1. Bitki orqanizmi

Bitki orqanizmi kök, gövdə, yarpaq və çiçək kimi əsas orqanlardan ibarətdir. Hər orqan bitkinin yaşaması üçün xüsusi bir vəzifə daşıyır. Kök suyu qəbul edir, yarpaq isə günəş enerjisi ilə qida hazırlayır. Bu orqanlar birlikdə bitkinin böyüməsini təmin edir.

### 2.Canlıların hüceyrələrinin fərqi

Bitki və heyvan hüceyrələri quruluş baxımından bir-birindən fərqlənir. Bitki hüceyrəsində sərt hüceyrə divarı olduğu halda, heyvan hüceyrəsində yoxdur. Hər hüceyrə növü öz funksiyasına uyğun forma alır. Bu müxtəliflik vacib və önəmlidir.

2025-ci ildə qüvvədə olan qanunlara görə, hər bir yaradıcılıq işi yaradıldığı andan avtomatik olaraq müəllif hüquqları ilə qorunur.

### 3.Bitki Toxumaları

Bitki toxumaları müxtəlif işlərə görə ixtisaslaşmış hüceyrə qruplarıdır. Örtük toxuması bitkini qoruyur, aparıcı toxuma isə maddələri daşıyır. Fotosintez əsasən yarpaqlardakı parenximada gedir. Toxumalar birlikdə bitkinin sağlamlığını təmin edir.Bu toxumaların düzgün fəaliyyəti bitkinin böyüməsi və uzunömürlülüyü üçün vacibdir.

### 4. Canlıların toxumaları arasındakı fərqlər

Bitkilərdə toxumalar əsasən sabit və hərəkətsiz funksiyalara malik olduğu halda, heyvan toxumaları daha dinamikdir. Heyvanların əzələ toxuması hərəkəti təmin edir, bitkilərdə isə belə bir toxuma yoxdur. Bitki toxumaları çox vaxt hüceyrə divarı səbəbindən sərt olur, heyvan toxumaları isə elastikdir. Hər iki canlı qrupu toxumalarını öz yaşayış mühitinə uyğun inkişaf etdirib. Bu fərqlər müxtəlif canlıların fərqli həyat strategiyalarına sahib olduğunu göstərir

## BioMedia

Aylıq Biologiya Qəzeti
Biz bu ay nələr etdik?
Nələr öyrəndik?

Bu ay biologiya dərslərində həm bitkilərin, həm də heyvanların necə qurulduğunu daha dərindən araşdırdıq və canlı aləmin biz düşündüyümüzdən də mürəkkəb olduğunu gördük. Öyrəndiyimiz mövzular bizə göstərdi ki, həyat sadəcə gözlə görünən formalarla məhdudlaşmır, onların içində gizlənmiş nizam və sistemlər sayəsində davam edir. Bitki hüceyrələrinin quruluşundan heyvanların qan dövranı sisteminə qədər keçdiyimiz hər mövzu canlıların niyə bu qədər fərqli olduğunu və eyni zamanda necə ahəngdar şəkildə yaşadıqlarını açıqlayır. Bu ay həmçinin fotosintez kimi həyati proseslərin planetimiz üçün nə qədər əhəmiyyətli olduğunu, qan dövranının isə canlı bədənində necə fasiləsiz işlədiyini öyrəndik. Bütün bunlar bizə biologiyanın yalnız dərs olmadığını öyrətdi.

**Biz bu ay bunları keçdik, gəlin birlikdə baxaq!**




### Bu Ay Məktəbdə Nələr Baş Verdi?

Məktəbdə yaradılan imkanlar və dərslərdəki aktivlik şagirdlərin həm təhsilə marağını, həm də inkişafını artırır.

SƏHİFƏ 2

### Bu il başverən mühim hadisələr

**Yapay həyat layihəsi "MiniLife"** — Avropalı alimlər cansız kimyəvi maddələrdən metabolik aktiv və "Darwin təkamülünü" göstərə biləcək sadə həyat formaları yaratmağı hədəfləyirlər.

SƏHİFƏ 3

### Dini Hekayələr

SƏHİFƏ 4

**İnsanları dəyişdirən qəzəb deyil, mərhəmət və gözəl əxlaqdır.**

SƏHİFƏ 4

### Bu Qr Kodu Oxudaraq Saytımıza daxil olun.

BioMedia - Rəsmi sayt



Hər öyrəndiyin məlumat bir kiçik addım, amma bilik yolunda böyük bir işıqdır.

# Bu ay məktəbdə nələr oldu nələr baş verdi?

Məktəbimizdə bu ay çox maraqlı və bəzən gülməli hadisələr baş verdi. Məktəbimizin açılışı, keçirilən tədbirlər və dərsdə yaşananlar bizim məktəbə münasibətimizi dəyişir və oxumağa həvəsimizi artırır. Məsələn, dərslərdə sadəcə dinləsək, çoxlarımız dərsi istəmədən oxuyar, amma müşahidə aparıb fikrimizi bildirsək, dərslər daha maraqlı olur.

«Rəqəmsal Bilgilər Liseyi»nin açılışı uğurla baş tutdu. BANM-in rektoru qeyd etdi ki, lisey IT sahəsində uğurlu fəaliyyət göstərəcək. Bir çox fizika dərsləri BANM-ın tədris binasında keçirilir, gələcəkdə isə kimya dərslərinin də orada olması planlaşdırılır.

Məktəbimizdə bizə intizam, qrup şəklində işləmə bacarıqları və sağlam həyat tərzi öyrədilir. Fiziki sağlamlığımız üçün voleybol, stolüstü tennis və üzgüçülük dərnəkləri, psixoloji sağlamlıq üçün isə şahmat, xor və rəsm dərnəkləri mövcuddur. Dərslərdə çətinlik çəkəndə peşəkar psixoloq kömək edir..



Elmar Qasımov BANM Rektoru

Bir dəfə qruplara bölünüb təqdimat hazırlayanda, yalnız oğlanlardan ibarət qrup güllər mövzusunu seçmişdi. Təqdimatın sonunda isə üç gülün üzərinə Ronaldonun şəkli ilə super gülməli bir edit etdilər. Hər kəs gülməkdən özünü saxlaya bilmədi, qrup isə öz yaradıcılığı ilə qürur duydu. Bu cür hadisələr dərsi həm maraqlı, həm də əyləncəli edir. Biologiya dərslərində belə sürprizlər bizi hər zaman sevindirir və dərsi daha canlı edir.Belə anlar dərsi sadəcə öyrənmək üçün deyil, həm də əylənmək və yaradıcı olmaq üçün əla fürsət edir. Hər gülüş dərsdəki gərginliyi azaldır.

**“Kaprizli Çobanyastığı Sendromu”**

Biologiya dərsimizdə çobanyastıqlarını rəngli suya qoyduq ki, guya ləçəklər rəng dəyişəcək. Nəticə? Heç nə. Çiçək: 1, biz: 0.

Səbəblər:

Kəsilmiş çiçəkdə ksilem kanalları hava ilə tutulub, su yuxarı qalxmayıb.

İstifadə etdiyimiz boya molekulları ksilemdən keçəcək qədər “xırda” olmayıb.

Yetərincə vaxt verməmişik, bitki isə “slow” rejimdə işləyir.

Beləliklə, biz rəngli çiçək görmədik, amma elmin qızıl qaydasını öyrəndik: Eksperiment həmişə tiktok kimi alınmır





## *Son aylarda BANMın uğurları:*

Bakı Ali Neft Məktəbi (BANM) 2025/2026-cı tədris ilində beynəlxalq tələbələrin qəbulunu artıraraq 20 ölkədən 70 tələbəni təhsil prosesinə cəlb edib. Təhsil və tərəfdaşlıq proqramları çərçivəsində BANM-in beynəlxalq nüfuzu yüksəlmiş və SOCAR tərəfindən dəstəklənən tələbə proqramları uğurla həyata keçirilib.



Rəqəmsal Biliklər Liseyinin açılış tədbiri ölkədə rəqəmsal təhsilin inkişafı və gələcək İT mütəxəssislərinin yetişdirilməsi üçün mühüm addım olub. Liseydə innovativ tədris məkanı, laboratoriyalar və layihə əsaslı öyrənmə mühiti yaradılaraq şagirdlərə müasir texnoloji biliklər verilməsi təmin edilir.Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov Prezident təqaüdü alan 36 tələbə ilə görüşərək onları təbrik edib. Görüşdə tələbələrə bilik və bacarıqlarını inkişaf etdirmələri tövsiyə olunub və bu nailiyyətin gələcək karyeralarında mühüm rol oynayacağı vurğulanıb.

## *Bu il başverən mühüm hadisələr*

**Yapay həyat layihəsi “MiniLife”** — Avropalı alimlər cansız kimyəvi maddələrdən metabolik aktiv və “Darwin təkamülünü” göstərə biləcək sadə həyat formaları yaratmağı hədəfləyirlər.

**Fluoresdent zülaldan kvant qubit** — Bioloji sistemlərdə kvant hesablama üçün fluoresdent zülaldan qubit əldə edilib; bu, canlı hüceyrələrdə maqnit və elektrik siqnallarını ölçmək üçün istifadə oluna bilər.

**Dire canavarın yenidən canlandırılması** — CRISPR vasitəsilə 10,000 ildən artıq müddətdə nəsli kəsilmiş dire canavarın fenotipinə bənzər “proxy” fərdlər yaradılıb.

**Gen redaktəsi ilə nəsli kəsilmiş növlərin qorunması** — De-extinction texnologiyaları yalnız nəsli kəsmiş növləri “qaytarmaq” üçün deyil, bugünkü təhlükə altındakı heyvanların genetik müxtəlifliyini gücləndirmək üçün də istifadə olunur.

**Kvant biologiyasının fiziki prinsipləri** — Kvant mexanikası və biologiyanı birləşdirən sahədə nəzəri işlər artıb, bu da nanobiotexnologiya və biotibdə yeni imkanlar yarada bilər.

**Reproduksiyaya davamlılıq və AI** — Bioloji sistematikada, ekologiyada və molekulyar biologiyada təkrarolunan metodologiyanın artırılması üçün Süni İntellekt modellərindən istifadə meyli yüksəlir.

**Proteomika + AI** — Zülalların identifikasiyası və funksional qarşılıqlı əlaqələrinin öyrənilməsində proteomika məlumatları ilə AI-nin inteqrasiyası bioloji kəşfləri sürətləndirir.

**Yenidoğan “yumşaq” sualtı robotlar bioilhamlandırılmışdır** — Bioloji strukturların prinsipinə əsaslanaraq hazırlanan yumşaq robotlar dəniz mühitində hərəkət etmək və həyat sistemlərindən ilhamlanan yeni funksiyalar göstərmək üzrə tədqiq edilir.



Dire Canavarı © BioMedia — Bütün müəllif hüquqları qorunur.

# Dire canavarın yenidən canlandırılması layihəsi

Dire canavarın “yenidən canlandırılması” layihəsi 2025-ci ildə biotexnologiya sahəsində ən maraqlı və müzakirə olunan layihələrdən biri olub. Alimlər CRISPR gen redaktəsi texnologiyasından istifadə edərək nəsli kəsilmiş dire canavarın fenotipinə bənzər “proxy” fərdlər yaratmağa çalışıblar. Bu layihə birbaşa nəsli kəsmiş heyvanların genetik məlumatlarının müasir canlılarda reallaşdırılmasına yönəlmişdir. Məqsəd yalnız keçmişi təkrar etmək deyil, həm də genetik müxtəlifliyi qorumaq və ekoloji sistemlərdə itirilmiş funksiyaları bərpa etməkdir. Layihə həm elmi nailiyyət, həm də etik suallar yaratmışdır, çünki “yenidən canlandırılmış” canlılar ekosistemə inteqrasiya olunduqda nə baş verəcəyi hələ tam məlum deyil. Dire canavar layihəsi, nəsli kəsmiş heyvanların bioetik və ekoloji risklərini qiymətləndirmək üçün geniş müzakirələrə yol açıb. Bu layihə həm də biotexnologiya sahəsində gələcək nəsli kəsmiş və təhlükə altında olan növlərin qorunması üçün yeni imkanlar təqdim edir.

Layihədə istifadə olunan genetik məlumatlar qədim canavar nümunələrindən çıxarılıb.

Alimlər bu fərdləri yaradarkən həm ekoloji, həm də genetika prinsiplərini nəzərə alıblar.

“Proxy” canavarlar tam orijinal dire canavar deyil, amma ona çox bənzəyir.

Bu layihə təkcə elmi kəşf deyil, həm də genetik mühəndislikdə böyük təcrübə qazandırır.

Nəsli kəsmiş canlıların bərpası gələcəkdə biomühafizə strategiyalarını dəyişə bilər.

Layihə həm də ictimaiyyət və alimlər arasında geniş etik debatlara səbəb olub.

Dire canavarın “yenidən canlandırılması” biotexnologiya sahəsində tədqiqatların gələcək istiqamətini formalaşdırır.

## SON İLLƏRDƏ İDMANDA NƏ OLDU NƏ YENİLİKLƏR VAR?

**2025 Dünya Atletika Çempionatı** Tokioda keçirilib və rekord sayda ölkə (198) medala yiyələnib.

**2025 IIHF Dünya Hokkey Çempionatı**-nda ABŞ ilk dəfə 1960-dan bəri qızıl medal qazanıb, Danimarka isə ilk dəfə ən yüksək dördlükdə yer alıb.

**2025 Dünya Kişi Xəndbol Çempionatı**-nı Danimarka qazandı və bu, onların dördüncü ardıcıl qələbəsidir.

**2025 London Marafonu**: Kişilər arasında Sabastian Sawe, qadınlar arasında isə Tigst Assefa qalib gəlib; qadınlarda yeni rekord qırılıb.

**Brisbane** Avstraliyada “World’s Top Sporting Cities 2025” siyahısında yüksəlmiş və ölkənin ən idmanlı şəhəri seçilib.

2025 Dünya Boks Çempionatı Liverpoolda keçirilib və 68 ölkədən 540-dan çox boksçu yarışa qatılıb.

Ryder Kuboku turniri ABŞ-da keçirilib və Avropa komandası 15-13 hesabı ilə qalib gəlib.

2025-ci ilin ən yaxşı yarımmüdafiəçisi mükafatına namizədlər açıqlandı və Arda Güler və Lionel Messi siyahıda yer alıb.

Dünya İdman Zirvəsi (“World Sports Summit”) 29-30 dekabr 2025-ci il tarixlərində Dubayda təşkil olunacaq, bu böyük “idman sənayəsi” sammitidir.



**“Hər məşq, yalnız bədəni deyil, ruhu da gücləndirir.”**

# DİNİ HEKAYƏLƏR-HƏR PROBLEMİN BİR HƏLLİ VAR

## 1. Musa Peyğəmbər – Dənizi İki Yerə Bölən İnam

Musa peyğəmbər Fironun zülmündən qaçan İsrail oğullarını Qırmızı dənizə gətirdi. Xalq qorxu içində olsa da, Musa Allahın əmrinə güvənərək asasını dənizə vurdu və dəniz iki yerə bölündü, insanlar təhlükəsiz keçdi. Bu hekayə göstərir ki, inam varsa, imkansız görünən qapılar da açılar.

## 2. İsa Peyğəmbər – Qəlbləri Oyadan Mərhəmət

Bir gün insanlar səhv etmiş bir qadını İsanın yanına gətirdi və onu cəzalandırmaq istədilər. İsa dedi: “Aranızda günahsız olan ilk daşı atsın,” və heç kim daş atmadı. O qadına bağışladı və beləliklə mərhəmətin qınamaqdan daha güclü olduğunu göstərdi.

## 3. Məhəmməd Peyğəmbər – Məkkədə Daşıdığı Mərhəmət Yükü

Məhəmməd peyğəmbərin həyatı mərhəmətin və əxlaqın ən gözəl nümunələrlə doludur. Onun haqqında məşhur bir hadisə belədir:

Məkkədə Peyğəmbəri sevməyən bir qadın var idi. O, hər səhər Məhəmməd peyğəmbər evindən çıxanda onun yoluna zibil tökərdi. Amma Peyğəmbər heç vaxt ona qəzəblənməz, heç bir pis söz deməzdi.

Bir gün Peyğəmbər yoldan keçərkən gördü ki, qadın onun yoluna zibil atmır. O, maraqlanıb qadının evinə qalxdı. Qadın xəstə idi.

Məhəmməd peyğəmbər ona dedi:

— Mən yoluma zibil atanda da sənə pislik etmədim. İndi xəstəsən, mən səni ziyarət etməyə gəldim.

Qadın bu gözəl davranışdan o qədər təsirləndi ki, göz yaşları içində ona minnətdarlıq etdi və həyatını dəyişdirdi.

Bu hekayə göstərir ki, **insanları dəyişdirən qəzəb deyil, mərhəmət və gözəl əxlaqdır.**




## AZƏRBAYCANDA TÜRKİYƏ MƏDƏNİYYƏTİ GÜNLƏRİ KEÇİRİLƏCƏK

Bu il Azərbaycanda Türkiyə Mədəniyyəti Günlərinin keçirilməsi nəzərdə tutulur. Tədbirin aprelin və may ayının sonunda gerçəkləşəcəyi gözlənilir. APA-nın Mədəniyyət və Turizm Nazirliyinin saytına istinadən yaydığı xəbərə görə, bu barədə Türkiyənin Azərbaycandakı Səfirliyinin mədəniyyət və tanıtım müşaviri Əhməd Seyid Arslan mətbuat nümayəndələri ilə görüşündə məlumat verib.

Müşavir Türkiyədə turizmin müxtəlif növlərinin inkişafına böyük önəm verildiyini də deyib. O bildirib ki, qardaş ölkə turizmin Azərbaycanda inkişaf etdirilməsinə də töhfə verir.

## ALLAHI VƏ HİPOKRATI UNUDANDA...

Təsəvvür edin, Təcili Yardım Xidməti can verən insanı yolun ortasında atıb gedir – nə Hippokrat, nə Allahın da gözünün qabağına gətirmədiyi, elə-beləcə, atıb gedir. Gözümüzlə görmüşük, tıxac vaxtı aeroport yolunda özəl tibbi klinikasına məxsus Təcili Yardım briqadası maşın qəzasına düşüb ağır yaralanan insanı xəstəxanaya çatdırmadan ötüb yanından sükutla keçməyə də bilər ki, çağırışsız xidmət göstərmək ixtiyarımız yoxdur: həmin o Təcili Yardım briqadasının da olduğu klinikanın daxili qanunları vicdandan da irəli durmuşdu. Amma vicdan olmayan yerdə hansısa qanun bir işə yarayarmı? İndi neyləyək, qanuna tabe olub, vicdana tüpürəkmi? Amma qanunvericilikdə də bir çox hüquq elə vicdanı qanuna “mindirmək” olar. Bu baxımdan səhiyyəmizin təxirəsalınmaz tibbi yardım xidməti ilə bağlı bir sıra islahatlara ciddi ehtiyacı var. Qüvvədə olan qanunvericiliyə görə, özəl Təcili Yardım Xidmətinin çağırışsız xidmət göstərmək borcu yoxdur – yəni xəstəni yolun ortasında atıb gedən özəl Təcili Yardım əməkdaşları qanuna mənsudurlar.

“Xəstəni yolda qoyub getmək olmaz, yaralıya dərhal və əvəzsiz yardım etmək savab kimi təbliğat gələ bilərdi. Amma hər bir peşə fəaliyyəti həyatda keçirdən tibbi personal öz məsuliyyəti qarşısında cavabdehlik daşıdığına görə bunu qanunvericilik bazasında həll etmək vacibdir.” Təcili Yardım Xidmətinin işi ilə əlaqədar qanunvericilikdə müəyyən göstərişlərin olduğunu qeyd edən millət vəkili hesab edir ki, bu məsələdə humanizmdən başqa, həm də məsuliyyətli yanaşma diqqətdə saxlanılmalıdır: “Üzərilərinə Təcili Yardım maşınları ağır vəziyyətdə olanlara yardım göstərməsini maddi stimullaşdırmaq müvafiq mexanizmlərlə mümkündür. O halda onlar da özlərinin sıxlıq zamanı fəaliyyətini daha yaxşı təşkil edərlər. Yəni onlar üçün ‘vacib xəstə aparmaq’ və ya ‘xəstə olana yardım etmək’ kimi hallar müəyyən etmək çətinlik yaratmaz.” Hazırda Təcili Yardım Xidməti əməkdaşlarının təcrübəsində müəyyən tətbiqlər olsa da, bunun hüquqi əsaslandırılması məsələsi açıq qalır.

Bu günlərdə TƏBİB-in sözçüsü Rəşad Orucov bildirib ki, vəziyyətlə əlaqədar məsələnin mövcud şərti nəzərə alınmalıdır. Alternativ üsul kimi əlavə zolağın çəkilməsinin mümkünl-

DƏVAMI DİGƏR SƏHİFƏ....

üyü məsələsinə toxunan deputat E. Mustafa, bunun ictimai nəqliyyat vasitələrinin mövcud sıxlığı ilə əlaqələndirir. Onun fikrincə, ağır xəsarət alan xəstələrin xəstəxanalara vaxtı-vaxtında çatdırılması məsələdir və hər halda bunun genişləndirilməsi zamanı bunu düşünmək yerinə düşər. “Hər halda vacib xəstə olan zaman bu iş optimallaşdırılmalıdır” deyə qeyd edir. Vahid mərkəzdən idarəolunma sisteminə toxunan E. Mustafa bildirib ki, bu sistem altında fövqəladə hallar zamanı fövqəladə idarəetmə mümkün ola bilər. “Digər hallarda isə dövlətin özəl sektorun üzərinə müəyyən öhdəliklər qoyulması vacibdir ki, bu da idarəçilik mexanizmlərinin daha da təkmilləşməsi ilə mümkün olar.

Çünki hazırda Təcili Yardım işində mövcud maneələrin aradan qaldırılması üçün şəffaf strukturun qurulması daha məqsədə uyğun görünür.” Deputat bildirib ki, müəyyən məqamda xəstələrin özəl Təcili Yardım maşınları ilə daşınması mümkün olsa da, bunun zaman çərçivəsi mütləq nəzərə alınmalıdır. Qeyd edək ki, şəhər inzibati ərazisində Təcili Tibbi Yardım xidmətinin fəaliyyəti Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına şamil edilir. Ancaq bu halda da magistral yollarda baş verən qəzalardan zərər görənlərin xidmətin çatdırılmasında müəyyən vaxt itkisi ola bilər. Təxirəsalınmaz yardım zamanı bu kimi hallar nəzərə alınmalı və vaxtında yardım göstərmək üçün operativlik təmin edilməlidir. Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının məsul əməkdaşları isə sürücülərin təlimatlandırılması və təcili yardım maşınlarının operativ hərəkəti üçün yeni tədbirlərin tətbiq edildiyini bildirirlər. Lakin Təcili Yardım Xidmətindən də bildirildiyi kimi, rabitə sistemlərinin və operativ idarəetmənin yenilənməsi Təcili Yardım Xidməti avtomobillərində də aparılır.

**Ceyhun Abbasov**

## Ümumiyyətlə, beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları hər zaman həlledici rolları malikdir. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dövl, yeni ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsizliyə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və, bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Bunlarla bərabər, Azərbaycan nəinki beynəlxalq idman yarışlarının keçirildiyi məkan, hətta bu yarışlarda yeni standartlar müəyyənləşdirən ölkədir. "Bakı-2015" ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, XV Avropa Gənclər Olimpiya Festivalının, "Formula-1" yarışlarının, futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 qarşılaşmasının, UEFA Avropa Liqasının finalının, minifutbol üzrə dünya çempionatının, III MDB Oyunlarının və müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həval edilməsi son illər bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

Hazırda isə idman ölkəsinə daha bir nüfuzlu yarış həvalə edilib. Belə ki, bu günlərdə FİFA-nın İcraiyyə Komitəsinin iclasında açılanan qərar əsasən, Azərbaycan Özbəkistanla birgə 2027-ci ildə keçiriləcək 20 yaşadək futbolçularından ibarət milli komandalar arasında dünya çempionatının final mərhələsinə evsahibliyi edəcək.

1977-ci ildən etibarən iki ildən bir təşkil edilən U-20 dünya çempionatının 25-ci futbol tarixində ilk dəfə kişi yarışları Azərbaycanda keçiriləcək. Həmçinin ilk dəfə Azərbaycanın kişilərdən ibarət milli komandası dünya çempionatının final mərhələsində iştirak edəcək. İndiyədək Argentina 6, Braziliya 5 dəfə dünya çempionu olub. Portuqaliya və Serbiyaya hərəyə 2 dəfə mundialın qalibi olublar, Uruqvay, Qana, İspaniya, Rusiya, Almaniya, İngiltərə, Fransa və Ukraynaya hərəyə 1 dəfə kuboku qazanıblar.

Avropanın ölkələrə xilafət gədər böyük nüfuzə malik olan U-20-lərin dünya çempionatlarından saysız-hesabsız istedadlı futbolçular kəşf edilib. Hazırda Çilidə keçirilən 24-cü dünya çempionatında 24 komanda 6 qrupda mübarizə aparır. 2023-cü ildə Argentinada təşkil olunan son turnirin qalibi isə Uruqvay yığması olub.

Dünyanın idman arenalarının da artıq özünə layiqli yer tutan Azərbaycan beynəlxalq yarışlara evsahibliyi etməsi iqtisadi nailiyyətlərimizdə də əsas rol oynayır. Bu gün Azərbaycan artıq dünya üzrə yüksək templərlə inkişaf edən bir ölkəyə çevrilib. Belə tədbirlərin keçirilməsi isə Azərbaycana həm iqtisadi, həm də strateji baxımdan böyük fayda gətirir. Etibarlı tərəfdaş kimi tanınması ölkəyə investisiyaların axınını, əməkdaşlığa açıq olması isə ölkəyə yeni texnologiyaların gəlməsinə səbəb olur.

Yarışlar ölkəmizə milyardlarla investisiyaların, milyonlarla turistin axınına yol açır. Belo beynəlxalq tədbirlərin keçirilməsi, hər hansı bir kompaniyanın və ya onun istehsal etdiyi məhsulun yalnız reklam olunması demək deyil, bütövlükdə Azərbaycanın dünyaya geniş təqdimatıdır ki, bunun da nəticəsində ölkəmizə gələcək iqtisadi perspektivləri müəyyənləşdirir, xarici investorların və böyük turist kütləsinin diqqətini cəlb edir.

Yekunda numuna olaraq qeyd etmək istərdik ki, bu ilin mayında Bakıda keçirilən minifutbol üzrə dünya finalı hazırlıq, puçqatma mərasiminin yüksək səviyyədə təşkilindən açılış mərasimindən sürətlə keçirilməsi göstərdi ki, təşkil komitəsi hazırlıq işlərini göstərən vaxtda yüksək səviyyədə başa çatdırmağa misli görünməmiş bir uğura imza atıb. Eloce, də iki il sonra Azərbaycanda təşkil ediləcək mundiala da hazırlığın ən yüksək səviyyədə olacağına şübhə yoxdur.

Qalır milli komandamızın uğurla çıxış etməsi...

Uğurlar, Azərbaycan!





# *Bir Çoxumuzun Bilmədiyi Maraqlı Faktlar*

**1. İnsan bədənindəki bütün damarlar birləşdirilsə...**

Onların ümumi uzunluğu **100 min kilometrdən çox** edir – bu, Yer kürəsini **təxminən 2,5 dəfə** dövr etməyə bəs edir.

**2. Beynimiz "biz yatanda" daha aktiv olur**

Yuxu zamanı beynin bəzi sahələrində aktivlik, oyaq haldakı aktivlikdən **daha yüksək** olur. Buna görə insan yuxuda daha kreativ olur.

**3. Suyun "dadı" yoxdur — əslində var**

İnsan dilində su üçün ayrıca xüsusi reseptor var. Əksər insanlar bunu hiss etmir, amma suyun dadı neytral deyil.

**4. Ahtapotların 3 ürəyi var və qanı mavi rəngdədir**

Bu, onların soyuq və oksigeni az olan dəniz dibində yaşaya bilməsi üçün təkamül adaptasiyasıdır.

**5. Dünyanın ən sakit yeri insanı dəli edə bilər**

Minnesotadakı səsiz otaqda (anechoic chamber) insanlar **ortalama 30 dəqiqədən çox** qala bilmir – çünki öz qan axışını belə eşitməyə başlayırlar.

**6. Günəşin içi "bərk" deyil**

Günəş tamamilə plazmadan ibarətdir – nə qatı, nə maye, nə də qazdır. Bu, maddənin dördüncü halıdır.

**7. İnsan gözü 1 milyondan çox rəng çaları ayırd edə bilər**

Bəzi nadir insanlar (tetraxromlar) isə **100 milyon çalara** qədər görmə qabiliyyətinə malikdir

**8. Bal arıları insan üzlərini tanıya bilir**

Onlar üzləri tıpkı insanlar kimi "bütöv formalar" olaraq yadda saxlayır.

**9. Delfinlər insanlara ad qoyur**

Onların bir-birinə xüsusi fit səsləri var. Hətta delfinlər insanları da səslərlə tanıyır və yadda saxlayırlar.

**Redaktor:Fürqan Süleymanlı**

## Həyatdan Dərs

Bir kənddə gənc bir oğlan var idi. O, tez-tez həyatın çətinliklərindən şikayətlənər, heç nəyi bacarmadığını düşünərdi. Bir gün kəndin ağsaqqalı ona yaxınlaşıb dedi: "Gəl, səni bir yerə aparım." Oğlan ağsaqqalı izləyərək böyük bir ağacın yanına gəldi. Ağacın kölgəsində qırılmış budaq yerə düşmüşdü, amma ağac hələ də möhkəm dayanırdı.

Ağsaqqal dedi: "Bu ağacın budağı qırılıb, amma o, yenə də yaşayır. Həyat da belədir — bəzən zərbələr alırsan, amma bu səni sındırmamalıdır. Əsl güc çətinliklər qarşısında əyilib qırılmamaqdır." Oğlan bu sözləri düşündü və anladı ki, hər sınaq insanı daha güclü edir. O gündən sonra o, çətinliklərə qorxmadan, daha cəsarətlə yanaşdı və məqsədlərinə doğru addımlamağa başladı.

Həyatın hər döngəsində bir dərs gizlidir. Onu görmək və dərk etmək bizdən asılıdır. Unutma, güc içindədir — sadəcə onu kəşf etməlisən.

Sudoku Oyununu Həll etməyə çalışın :)

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | 8 | | | | 4 |
| | | 7 | 3 | | | | | |
| | | | | 1 | | 8 | 3 | 9 |
| 8 | 7 | 5 | | 3 | | | | |
| | | | | | 7 | 4 | | |
| 9 | | | | 2 | | | | |
| 1 | | | 6 | | | | 5 | |
| | 3 | | | | | | 6 | |
| | 2 | | | | 5 | | | 1 |

Hər qrupda,hər sətirdə və hər sütunda 1 dən 9 a qədər ədədlər olmalıdır.

# *Grok-un Sərt Üslubu: 2024-də "Ağıllı, Amma Kəskin" Süni İntellekt Trendi*

Süni intellekt aləmində fərqlənmək çətinləşdiyi bir zamanda, Grok özünəməxsus kəskin və sərt danışıq tərzi ilə diqqət çəkir. Çatbotun bəzən söyüşə çatan zarafatları sosial mediada sürətlə yayılır və istifadəçilər arasında həm mübahisə, həm də maraq yaradır. Bəziləri bunu səmimi və əyləncəli hesab edir, digərləri isə etik sərhədlərin zəifləməsi kimi dəyərləndirir. Buna baxmayaraq, Grok-un "filtrlənməmiş" üslubu süni intellektlə ünsiyyətdə yeni dövrün başlandığını göstərir.

Grok-un populyarlığı artdıqca, digər şirkətlər də daha sərbəst üslublu süni intellekt modelləri yaratmağa can atır. İstifadəçilər bu yeni dalğanı daha əyləncəli və azad ünsiyyət forması kimi qiymətləndirirlər. Lakin mütəxəssislər xəbərdarlıq edir ki, sərt üslub geniş yayılsa, etik nəzarət çətinləşə bilər. Platformalar artıq belə modellər üçün əlavə filtr və qaydalar hazırlamağa başlayıb. Görünən odur ki, Grok-un "dil açan" davranışı süni intellekt dünyasında iz bıraxacaq.

## 5 Kiçik Məqalə

1. BMT iqlim dəyişikliyi ilə bağlı yeni hesabat yayıb. Sənəddə ölkələrin karbon emissiyalarını azaltmaq üçün daha ciddi addımlar atmasının vacibliyi vurğulanır. Mütəxəssislər vəziyyətin kritik olduğunu bildirir.

2. Avropa Birliyində enerji təhlükəsizliyi müzakirələri güclənib. Rəsmilər alternativ mənbələrə keçidi sürətləndirməyi planlaşdırır. Məqsəd qitənin enerji asılılığını minimuma endirməkdir.

3. Asiyada texnologiya startaplarına maraq artır. İnvestorlar süni intellekt və robotika sahəsində çalışan gənc şirkətlərə böyük dəstək göstərir. Region qlobal innovasiya mərkəzlərindən birinə çevrilir.

4. Afrikada kənd təsərrüfatı layihələri genişlənir. Yeni suvarma sistemləri fermerlərin məhsuldarlığını artırır. Ekspertlər bunun ərzaq təhlükəsizliyinə müsbət təsir edəcəyini bildirir.

5. Cənubi Amerikada turizm sektoru pandemiyadan sonra sürətlə bərpa olunur. Şəhərlər və sahil bölgələri rekord sayda turist qəbul edir. Yerli iqtisadiyyat üçün böyük stimuldur.

## YARIMÇIQ QALMIŞ ROMAN




*Şair, publisist, filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Yazıçılar Birliyinin üzvü Elxan Yurdoğlunun "Yarımçıq qalmış roman" kitabı 2020-ci ildə 44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarımızı azadlığa qovuşduran 3000-dən artıq qəhrəman şəhidlərimizdən birinə – leytenant Nicat Məmmədliyə həsr olunmuşdur.*

---

"Leytenant Məmmədli Nicatın iş dəftəri" bölməsinə şəhidin şəxsi qeydləri daxil edilib. Bu iş dəftərində Nicatın dünyagörüşü, maraq dairəsi, məlumatlılıq səviyyəsi, kitaba olan marağı özünü göstərir. Kitabın sonuncu bölməsi "Şəhid anasından cənnətə məktub" adlanır. Şəhid anası Minayə xanımın oğlu Nicata ünvanladığı məktubdan ürəkgöynədən sətirlər:

"Canım oğlum, dünyaya göz açmağınla həyatıma işıq saçanım, bu dünyadan cənnətə getməyinlə işıqlı dünyamı qaranlıq edənim... Sən Vətəni, torpağı bizdən üstün tutdun."

Kitabın adı da oxucuda maraq oyadır. Niyə "Yarımçıq qalmış roman"" Bəli, bu ad iki məna daşıyır. Həm şəhidimizin taleyinə yazılmış yarımçıq bir həyat romanı, həm də Nicat Məmmədlinin özünün hamıdan gizli şəkildə qələmə aldığı və çox təəssüf ki, tamamlaya bilmədiyi yarımçıq roman. Şəhid-leytenant Nicat Rizvan oğlu Məmmədli ölümündən sonra "Vətən uğrunda", və "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Rəşadət" ordenilə təltif edilmişdir.

**SPONSORS:** SCRIBD TON

# Əbədi şöhrətin "Yarımçıq qalmış roman"ı

1999-cu il iyul ayının 31-də Naxçıvan Muxtar Respublikasının **Şərur** şəhərində doğulan Nicat Rizvan oğlu Məmmədli orta təhsilinə Şərur şəhər 2 nömrəli tam orta məktəbdə başlamış, 2016-cı ildə Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə başa vurmuşdur.

2020-ci ilin iyun ayında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən məzun olmuş, təyinatla Ağdam rayonunun Xındırıstan kəndində yerləşən hərbi hissədə işə başlamışdır.

2020-ci il sentyabrın 27-də işğal edilmiş ərazilərimizin azad olunması və müstəqil respublikamızın ərazi bütövlüyü uğrunda başlanan İkinci Qarabağ müharibəsinin ilk günündən leytenant Nicat Məmmədli Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərə qatılmışdır. Oktyabrın 8-də ərazidəki yüksəkliklərin düşməndən alınması uğrunda gedən ağır və şiddətli döyüşlərdə misilsiz qəhrəmanlıq nümayiş etdirərək şəhidlik zirvəsinə ucalmışdır.

Oktyabr ayının 12-də şəhid-leytenant Nicat Məmmədlinin nəşi Şərur şəhərinə aparılmış və burada dəfn edilmişdir.

"Yarımçıq qalmış roman" Nicatın körpəlik və döyüş formasındakı son şəklinə qədər ömür yolunu əks etdirən fotolarla zəngin olmaqla yanaşı, maraqlı bölmələrlə də diqqəti cəlb edir. Kitabın **"Şeirlərin şəhdi, şəhid"** bölməsində Nicat Məmmədliyə həsr olunmuş 13 şeir çap olunub. Bu poetik nümunələrdən 5-i Nicatın anası Minayə xanıma məxsusdur. Şəhid anası "Yenə gözüm yolda qalıb" şeirində yazır:

*Çox məşhur bir bağban oldun,*
*Yerdə ağac əkip getdin.*
*Çox məşhur bir rəssam oldun,*
*Sinəmə dağ çəkib getdin.*



BioMedia TƏŞƏKKÜR EDİRİK!

Baş Redaktor : Fürqan Süleymanlı